# Taleyimizə nə yazılıb?!



*Bunu əvvəlcədən heç kəs bilmir. Yalnız illər keçəndən, nəyəsə nail olandan sonra dərindən köks ötürürük: «Demək taleyimizə bu da yazılıbmış...»*

Mehmanın ömür kitabını vərəqləyərkən nəzərimdən heç nə yayınmır. Burada parlaq səhifələr də var, ağrı-acılı dəqiqələr də.

1965-ci ildə Zəngilan rayonunun Beş Dəli kəndində ziyalı ailəsində anadan olub. İbtidai məktəbi həmin kənddə bitirib. Orta təhsilini 1 saylı Zəngilan şəhər məktəbində alıb. Sonra mədəni-maarif texnikumunda oxuyub. Ordu sıralarında xidmətini başa vurduqdan sonra Zəngilan Rayon Mədəniyyət Şöbəsinin metodisti təyin edilib. Yeni-yeni özfəaliyyət dərnəklərinin, bədii kollektivlərin yaradılması və inkişafında xüsusi zəhməti olub.

Təbii ki, təhsilini davam etdirməyi də unutmayıb. Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetini bitirib. 2007-ci il avqustun 14-də ona böyük etimad göstərilib Zəngilan Rayon Mədəniyyət və Turizm Şöbəsinin müdiri təyin edilib.

Ötən günləri Mehman Nəsirov belə xatırlayır:

- O vaxt şöbəmiz özünə 7 kitabxananı, 1 MKS-i, 8 kənd və rayon mədəniyyət evini, 3 muzeyi, 1 parkı, 4 musiqi məktəbini və s. birləşdirirdi. Bu müəssisələr rayonun 82 kəndində və Zəngilanın özündə fəaliyyət göstərirdi. Qayğısız günlərimiz vardı. Hardan bilərdik ki, nankor qonşularımız xəyanətkarcasına torpaqlarımıza qəsd edəcək, neçə-neçə şəhər və kəndlərimizi odlara qalayacaq, yer-yurdumuzdan didərgin düşəcəyik.

Hazırda respublikanın 43 şəhər və rayonunda məskunlaşmışıq. Əhalimiz daha çox Bakı, Sumqayıt şəhərləri və Sabirabad rayonunda yerləşib. Sabirabadın Rüstəmli kəndində 161 ailəlik şəhərcik salınıb, 1 mədəniyyət evi və 1 kitabxana inşa olunub. Tezliklə onların fəaliyyətini təmin edəcəyik.

Hazırda 3 musiqi məktəbinin fəaliyyəti bərpa olunub. Burada 103 nəfər çalışır. Müəllimlərimiz 412 nəfər şagirdin təlim-tərbiyəsi ilə məşğul olur. Onlar arasında Zakir Kərimovun rəhbərlik etdiyi Mincevan uşaq musiqi məktəbi yaxşı işinə görə fərqlənir. Bütövlükdə 341 nəfər mədəniyyət işçimiz var. Çalışacağıq ki, qalan mədəni-maarif müəssisələrimizdə də işi canlandıraq. Mən göstərilən etimadı ləyaqətlə doğrultmaq üçün çox çalışmalıyam. Bunu bütün məsuliyyətimlə dərk edir və şöbənin fəaliyyətində dönüş yaratmaq üçün əlimdən gələni əsirgəməyəcəyəm.

**İ. BAYRAMOV**